# Avropa İttifaqının Sülh Fondu regionda sülhə təhlükə yaradır

## Üçüncü tərəfin Cənubi Qafqazda mövcudluğu gərginliyi artırır



**Yanvarın 30-da Aİ-nin ittifaq ölkələrinin Azərbaycan-Ermənistan sərhəddinə yerləşdirdikləri "müşahidə missiyasının" fəaliyyətinin daha iki il, 2027-ci il fevralın 19-dək uzadılması barədə "razılıq" əldə etmələri haqqında məlumat yayıldı. Onu da qeyd edək ki, "müşahidə missiyasına" bu dövr üçün nə az, nə çox 44 milyon avrodan çox vəsait ayrılıb.**

Məlumatda qeyd olunur ki, missiyanın məqsədi yerdəki vəziyyəti müşahidə etmək və hesabat vermək, münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə vermək, mümkün olduqca Ermənistan və Azərbaycan arasında etimadın yaradılmasına dəstək olmaqdır. Məlumatda həmçinin Aİ Şurası missiyanın vəzifələrinin dəyişməz olaraq qaldığı bildirilib, EUMA-nın silahsız mülki missiya olduğu və belə də qalacağı əlavə edilib.

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, bu missiyanın fəaliyyəti regionun təhlükəsizliyinə təhdid yaradır və Azərbaycanın maraqlarına uyğun deyil. Bununla yanaşı, son dövrlərdə missiyanın tərkibi və fəaliyyəti ilə bağlı yeni detallar, fəaliyyətinin genişlənməsi müşahidə edilir ki, bu da məsələnin əsas mahiyyətini daha da aktuallaşdırır. Artıq hərbiləşmiş struktura çevrilmiş və daimi əsaslarla Ermənistan-Azərbaycan sərhədində fəaliyyət göstərən missiya regionda sülhə olan ümidləri sarsıdır. Tərkibində Fransa nümayəndəsinin çox olması və bu ölkə rəsmilərinin missiyanın fəaliyyətinə yaxından maraq göstərməsi, hətta regiona səfərlər edərək missiya üzvləri ilə görüşlər keçirmələri "müşahidəçilərin" Ermənistandan çox, bu ölkənin regionda maraqlarını təmin etdiyini sübuta yetirir. Haqlı olaraq məhz bu kimi məqamlar missiyanın bitərəfliyini şübhə altına alır və onun konkret siyasi maraqlara xidmət etdiyini göstərir.

Azərbaycan tərəfi tələb edir ki, bu missiya regiondan çıxarılsın və Ermənistanla Azərbaycan arasında aparılan delimitasiya-demarkasiya işlərinə mane olmasın. Hər iki tərəf bu məsələdə vasitəçilərə ehtiyac olmadığını da bildirib. Missiyanın bu həssas məqamda regionda fəaliyyəti onun prosesə müdaxilə edə biləcəyini göstərir ki, bu da növbəti təhlükələrə yol açır.

Ermənistan isə hələ də anlamır ki, bu "missiya"nın fəaliyyəti sülh prosesinə zərər verir. Üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətin gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda hərbi amil kimi meydana çıxmasına xidmət edir.

Ermənistan anlamalıdır ki, missiyanın 2027-ci il fevralın 19-dək regionda qalması Ermənistana heç nə qazandırmayacaq. Qonşu ölkə bu "missiya"ya "təhlükəsizlik çətiri" kimi baxsa da, əslində, bu, Ermənistanın özü üçün yeni təhlükələr yaradır. İrəvan anlamalıdır ki, Aİ missiyası regionda sülhün bərqərar olmasına kömək edən mexanizm deyil.

Erməni tərəfi bəyan edir ki, "missiya" delimitasiya və demarkasiya prosesi başa çatana qədər bölgədə fəaliyyətini davam etdirəcək. Halbuki sərhədlərin delimitasiya və demarkasiya prosesi iki ölkənin işidir və üçüncü tərəfin mövcudluğu gərginliyin artmasına səbəb olur.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan missiyanın mandatının uzadılmasını alqışlayıb. "Missiya regionda sabitliyin dayaqlarından biri olduğunu sübut edib. Biz hər bir Aİ üzvü dövlətinin dəstəyini və iştirakını yüksək qiymətləndiririk", - Mirzoyan "X" sosial şəbəkəsində yazıb.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Aİ-nin missiyasının müddətinin uzadılmasının etimadı möhkəmləndirmədiyini, əksinə, sarsıtdığını vurğulayıb: "Bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər".

Görünən budur ki, Aİ-nin çətiri altında gizlənən bəzi Qərb dövlətləri, xüsusilə Fransa öz qlobal, geosiyasi maraqları naminə Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olmasında maraqlı deyil.

Mətbuatın yazdığına görə, Aİ yaxın zamanda Ermənistana müdafiə qabiliyyətini artırmaq üçün Avropa Sülh Fondundan yeni tranş ayırmağa hazırlaşır. Mətbuata sızan məlumatlarda artıq vəsaitin ayrılması ilə bağlı ilkin razılığın olduğu qeyd edilir. Xatırlatmaq yerinə düşər ki, Avropa İttifaqı dəfələrlə Azərbaycan və Ermənistanı sülhə çağıran bəyanatlar verib. Bu bəyanatların fonunda Ermənistanı silahlandırması haqlı olaraq suallar doğurur. Avropa İttifaqı Şurası tərəfindən iyulun 22-də "Avropa Sülh Fondu" çərçivəsində Ermənistana 10 milyon avro məbləğində hərbi yardım edilməsi barədə qərar qəbul edilmişdi. Bu vəsaitin də Ermənistanın silahlanması üçün istifadə olunacağı şübhə doğurmur. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə həmin vaxt Avropa İttifaqı Şurasının qərarını "yanlış və təhlükəli, regionda gərginliyin artmasına xidmət edən addım" adlandırmışdı. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə "bölücü xətlər" yaratmaq siyasətinin təzahürüdür.

Aİ-də yaxşı bilirlər ki, Ermənistan o dövlətdir ki, 30 ilə yaxın dövr ərzində Azərbaycan ərazilərini işğal altında saxlayıb. İndiki məqamda Ermənistana edilən "yardımlar", ayrılan vəsait məbləğindən asılı olmayaraq sülhə xidmət etməyəcək. Bu qərar Ermənistanda revanşizm meyillərinin güclənməsinə, onun yenidən təcavüzkar siyasət həyata keçirməsinə təkan verə bilər.

Bu gün Azərbaycan Avropa məkanında təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan dövlətlərdən biridir. Təəssüf ki, bu, Avropada müəyyən dairələr tərəfindən nəzərə alınmır. Mövcud tendensiya davam etsə, şübhəsiz ki, bu, regionda davamlı sülhün təmin olunmasına deyil, əksinə, yeni hərbi-siyasi eskalasiyanın yaranmasına, bölgədə bölücü xətlərin ortaya çıxmasına səbəb olacaq. Bu isə nə region dövlətlərinin, nə də Avropanın maraqlarına uyğundur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 25 fevral (№42 ).- S.10.